# Bakı Dövlət Universiteti xalqımızın milli sərvətidir

“Bakı Universiteti” Nəşriyyatı Azərbaycanımızın qocaman ali təhsil ocağı olan Bakı Dövlət Universitetinin 95 illik yubileyinə həsr olunmuş kitab dəstini nəşr etmişdir. Yüksək poliqrafik keyfiyyətlə “Nurlar” Nəşriyyat-Poliqrafiya Mərkəzində çap olunmuş hər üç kitab ümummilli lider Heydər Əliyevin **“Bakı Dövlət Universiteti Azərbaycan xalqının milli sərvətidir. O, yarandığı gündən Azərbaycanda elmi inkişaf etdirən mərkəzə çevrilmişdir. Ölkəmizdə yaranmış elmi-tədqiqat institutlarının əksəriyyəti, elm ocaqlarının hamısı öz başlanğıcını Bakı Dövlət Universitetindən götürmüşdür. Bakı Dövlət Universiteti elm və təhsil məbədi olmaqla yanaşı, hər zaman Azərbaycan dilinin inkişafında, milli şüurun, vətənpərvərlik ruhunun inkişafında böyük xidmətlər göstərmiş bir mərkəz rolunu oynamışdır”**, – kəlamının işığında hazırlanmışdır.

Elm və təhsil tariximizin son bir əsrə qədərki inkişaf mərhələlərinin ətraflı təqdim edildiyi yubiley nəşrlərində müsəlman dünyasının ilk dünyəvi ali təhsil müəssisəsi olan BDU-nun keçdiyi yol illər və mərhələlər üzrə açıqlanır, onun hər bir fakültə və kafedrası barədə, müvafiq qurumları haqqında əhatəli məlumatlar verilir.

Dövlətimizin başçısı cənab İlham Əliyevin **“Bakı Dövlət Universiteti yüksək ixtisaslı milli kadrların hazırlanması, yeni-yeni elmi istiqamətlərin formalaşdırılması, dünya təhsil məkanına inteqrasiya, eləcə də mədəni-mənəvi dəyərlərimizin yaradılması yolunda boynuna düşən vəzifələri ləyaqətlə yerinə yetirir. Universitet bu gün dövlət idarəçiliyi, iqtisadiyyat, elm, təhsil və mədəniyyətin müxtəlif sahələrində çalışan çoxsaylı məzunları ilə müstəqil Azərbaycanın inkişafına yeni töhfələr verir”**, – fikri əsas tutularaq nəşrə hazırlanan kitablarda milli maarif ocağımızın AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ möhtəşəm rolu və yeri xüsusi qayğı və hikmətlə tərtiblənmişdir.

Doğma Universitetin formalaşmasında əməyi olan professorlar haqqındakı ümumi xarakterli məlumatlar əsasında hazırlanmış ikinci kitabın maraqlı tərəfi ondadır ki, Universitetin tarixini onu yaradanların elmi-pedaqoji bioqrafiyasından duymağa dəstək verir.

“Bakı Dövlət Universiteti. 15 il mətbuat aynasında” adlı üçüncü kitab yubiley təntənəsinə maraqlı ovqat aşılaya bilir. Ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin Universitetlə bağlı fərman və sərəncamları, burada keçirilən rəsmi görüş və tədbirlər barədə məlumatlar, BDU-nun Fəxri doktorları haqqında informasiyalar, eləcə də BDU-nun beynəlxalq əlaqələrini işıqlandıran yığcam materiallar Universitetimizi daha bir maraqlı zirvədən görüb, qürur hissi keçirməyə həvəsləndirir.

Oxucularımızı sevimli Universitetimizi yubiley təntənəsinə çatdıran yolun əsas anları ilə yaxından tanış etmək üçün BDU-nun rektoru, akademik Abel Məhərrəmovun yubiley nəşrinə yazdığı “Ön söz”ü dərc edirik.

**“Respublika”.**

* * *

**ABŞ universitetləri ona görə qüdrətli deyillər ki, onlar dünyanın güclü dövlətinin universitetləridirlər. ABŞ ona görə güclü dövlətdir ki, onun qüdrətli universitetləri var.**

**Franklin Ruzvelt,**
**ABŞ-ın 32-ci prezidenti.**

Ümummilli lider Heydər Əliyevin “Azərbaycan xalqının milli sərvəti” adlandırdığı Bakı Dövlət Universiteti (BDU) mənəvi böyüklüyümüzün simvolu, elm, təhsil və mədəniyyətimizin möhtəşəm məbədidir. Hər bir ölkənin iqtisadi, siyasi və mədəni səviyyəsinin barometri hesab edilən milli universitet missiyasını ölkəmizdə şərəflə yerinə yetirən BDU 95 illik fəaliyyəti dövründə respublikamızın ilk ali təhsil ocağı kimi ölkə həyatının bütün sahələrinə öz təsirini göstərmişdir. Azərbaycan xalqının tarixi ilə çox səsləşən BDU-nun keçdiyi şərəfli yol ilk rektor V.İ.Razumovskinin dediyi sözlərin həqiqət olduğunu sübut etmişdir: “Azərbaycan öz maarif ocağını yaratdı. Türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın qovşağında yeni məşəl yandı... Mən Bakı Dövlət Universitetinin parlaq gələcəyinə inanıram”.

Hər bir xalqın milli şüurunun, milli özünüdərkinin yetkinləşməsi onun elm və təhsilinin inkişafı ilə şərtlənir. Bu mənada, XX əsrin əvvəllərindən başlayaraq, Azərbaycan xalqının maariflənməsində, ziyalı təbəqəsinin formalaşmasında, elmi ənənələrin zənginləşməsində Bakı Dövlət Universitetinin əvəzsiz rolu danılmazdır.

Ulu öndər Heydər Əliyev BDU-nun 50 illik yubileyindəki çıxışında çox dəyərli bir fikir söyləmişdir: “Azərbaycan xalqının parlaq və orijinal mədəniyyətinin ən yaxşı ənənələri Azərbaycan Dövlət Universitetində (o dövrdə BDU belə adlanırdı-A.M.) inkişaf etdirilmişdir. Məşhur filosof Ə.Bəhmənyarın və mütəfəkkir şair Nizaminin, riyaziyyatçı-astronom Nəsirəddin Tusinin və dahi lirik şair Füzulinin, orta əsrlərin böyük alimi F.Rəşidəddinin və üsyankar şair Nəsiminin, tarixçi A.Bakıxanovun və realist yazıçı M.F.Axundovun, görkəmli satiriklərdən M.Ə.Sabirin, C.Məmmədquluzadənin və bir çox başqalarının adları bu milli dəyərlərin çoxəsrlik tarixinin bəzəyidir”.




Qeyd etmək istəyirəm ki, ümummilli lider Heydər Əliyevin bu dərin fikirlərindən bəhrələnərək, biz 2013-cü ildə BDU-nun tarixi ilə bağlı Azərbaycan, ingilis və rus dillərində bir qrafik film hazırlamışıq. Həmin 4 dəqiqəlik filmdə xalqımızın min illik elm və məfkurə tarixi nəzərdən keçirilir, BDU-nun təməlinin qoyulmasında görkəmli şəxsiyyətlərin tarixi rolu göstərilir. Filmin mətnini olduğu kimi təqdim edirik: “Dünyanın ən qədim mədəniyyət mərkəzlərindən və insan məskənlərindən biri-Azərbaycan! 5 min illik dövlətçilik tarixi və zəngin dili olan–Azərbaycan! Gözəl təbiətindən, bol sərvətlərindən intellektual təfəkkürünə, zəngin ədəbiyyatına, dünya şöhrətli mədəniyyətinə nur saçan Azərbaycan! Əsrlərlə dahi mütəfəkkirlərimizin zəkasından qaynaqlanaraq Bakı Dövlət Universiteti kimi məbədgah yaradan Azərbaycan! (sonra BDU-nun təməlinin yaranmasında rolu olan insanlar göstərilir): X əsr – Əbdülhəsən Bəhmənyar-Azərbaycan filosofu və alimi; XI əsr – Mahmud Qaşqarlı-böyük filosof, dilçi alim; XII əsr – Nizami Gəncəvi-mütəfəkkir şair, alim və filosof; XIII əsr – Nəsirəddin Tusi-filosof, astronom, riyaziyyatçı, dövlət xadimi; XIV əsr – Fəzullah Rəşidəddin-tarixçi, həkim, görkəmli alim; XIV-XV əsrlər – İmadəddin Nəsimi-üsyankar Azərbaycan şairi və filosofu; XV-XVI əsrlər – Şah İsmayıl Xətai-Səfəvilər dövlətinin banisi; XVI əsr – Məhəmməd Füzuli-Şərq poeziyasının nəhəngi; XVIII əsr – Molla Pənah Vaqif-böyük şair, siyasi və ictimai xadim; XIX əsr – Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Mirzə Kazım bəy, Seyid Əzim Şirvani, Abbasqulu ağa Bakıxanov, Əbdürrəhim bəy Haqverdiyev; XX əsr – Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov, Mirzə Ələkbər Sabir, Cəfər Cabbarlı, Hüseyn Cavid, Səməd Vurğun, Hacı Zeynalabdin Tağıyev, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Məmmədəmin Rəsulzadə, Nəsib bəy Yusifbəyli, Həbib bəy Şahtaxtinski, Camo bəy Hacınski, Əli bəy Hüseynzadə”. Filmdə bu tarixi şəxsiyyətlərin hər birinin bu universitetin bir təməl daşı, sütunu olması göstərilir. Həqiqətən də, BDU bir təhsil ocağı, bir qurum kimi cəmi 95 il fəaliyyət göstərsə də, əslində, onun mənəvi-tarixi kökləri daha dərinlərə gedib çıxır, dəqiq desək, ilk ali təhsil ocağımız milli mədəniyyətimizin qədim bünövrəsi üzərində formalaşmışdır. Hər biri bir Universitet olan Nizami Gəncəvi, Nəsirəddin Tusi, Məhəmməd Füzuli kimi dünya şöhrətli dahilərimiz bəşəriyyətə tükənməz mənəvi qida vermiş, Azərbaycanın elm və mədəniyyəti üçün möhkəm əsaslar, tarixi köklər formalaşdırmışdır. Məhz bu möhkəm əsasların və mənəvi bazanın mövcudluğu hesabına yaşı hələ bir əsr olmayan BDU dünyanın bir neçə yüz il əvvəl yaradılmış aparıcı universitetləri ilə bərabərhüquqlu əməkdaşlıq edir, hərtərəfli elm və təcrübə mübadiləsi aparır.

Bakı Dövlət Universiteti həm də Azərbaycan Milli Elmlər Akademiyasının və bəzi ali təhsil müəssisəsinin (Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və s.) yaradılmasında mühüm rol oynamışdır. Bununla yanaşı, Bakı Dövlət Universiteti Azərbaycanda milli elmi məktəblərin formalaşmasında, fundamental elm sahələrinin əsaslı inkişafında əvəzsiz xidmətləri olan onlarca dəyərli alim yetirmişdir (Yuxarıda haqqında söhbət gedən filmdə göstərilmişdir ki, ötən əsrlərin dahi şəxsiyyətləri ilə yanaşı, Bakı Dövlət Universitetinin bir tarixi təhsil ocağı kimi formalaşmasında XX əsrdə yaşamış böyük alimlərin də müstəsna rolu və xidmətləri olmuşdur). Böyük qürur hissi duyuruq ki, yüksək elmi zirvələr fəth etmiş və Azərbaycanda milli elmi məktəblərin yaradılmasında böyük rolu olmuş riyaziyyatçılar: Zahid Xəlilov, Azad Mirzəcanzadə, Məcid Rəsulov, Əşrəf Hüseynov, İbrahim İbrahimov, Mirabbas Qasımov, Fərəməz Maqsudov; fiziklər: Həsən Abdullayev, Bəhram Mirzəyev, Bəhram Əsgərov; kimyaçılar: Yusif Məmmədəliyev, Murtuza Nağıyev, Əli Quliyev; bioloqlar: Abdulla Qarayev, Aleksandr Qrossheym, Müzəffər Abutalıbov; geoloqlar: Mirəli Qaşqay, Musa Əliyev, Şəfayət Mehdiyev, Ədhəm Şıxəlibəyli, Şirəli Məmmədov; coğrafiyaçılar: Həsən Əliyev, Qasım Gül, Hadı Əliyev, Budaq Budaqov; filoloqlar: Məmməd Arif Dadaşzadə, Məmmədağa Şirəliyev, Həmid Araslı, Mir Cəlal Paşayev, Bəxtiyar Vahabzadə, Məmməd Cəfər Cəfərov, Feyzulla Qasımzadə, Cəfər Xəndan Hacıyev; jurnalist Nəsir İmanquliyev; tarixçilər: İsmayıl Hüseynov, Əlisöhbət Sumbatzadə, Ziya Bünyadov, Püstəxanım Əzizbəyova, İqrar Əliyev, Tofiq Köçərli, Cəmil Quliyev, Zülfəli İbrahimov, Əlövsət Quliyev, Mahmud İsmayılov, Qaraş Mədətov; hüquqşünaslar: Vahid Qəhrəmanov, Məmməd Xələfov; şərqşünaslar: Bəkir Çobanzadə, Ələsgər Məmmədov, Rəhim Sultanov, Məmməd Mübariz Əlizadə, Aida İmanquliyeva, Rüstəm Əliyev; filosoflar: Heydər Hüseynov, Mehbalı Qasımov, Firudin Köçərli; iqtisadçı Həsən Dadaşov və adı çəkilməyən bir çox digər görkəmli şəxsiyyətlər vaxtilə məhz Bakı Dövlət Universitetində çalışmışlar.

Respublikamız və dünyanın başqa dövlətləri üçün kadrların hazırlanmasında böyük zəhməti, həmçinin elmin və təhsilin inkişafında müstəsna xidmətləri olan görkəmli elm xadimləri və müəllimlər-riyaziyyatçılar: Məmmədbəy Əfəndiyev, Maqsud Cavadov, Qoşqar Əhmədov, Yusif Əmənzadə, Arif Babayev, Yəhya Məmmədov, Əmir Həbibzadə; fiziklər Abdulla Muxtarov, Lətif İmanov, Rəhim Hüseynov, Volodya Tahirov, Sabir Hacıyev, Qafar Əfəndiyev, Rəsul Muradov, Kəriş Köçərli, Qüdrət Axundov, Yuhənnas Seyidov; kimyaçılar: Cümşüd Zülfüqarlı, Cəbrayıl Hüseynov, Murtuza Əhmədli, İsrafil Səttərzadə, Şamil Əhmədov, Əlihüseyn Quliyev, Dəmir Qəmbərov; bioloqlar: Mirəli Axundov, Abdulla Ələkbərov, Səttar Əsədov, Hüseyn Həsənov, Yusif Əbdürrəhmanov, Dəmir Hacıyev, Vahid Hacıyev, Abdulla Tağızadə, Tofiq Məmmədov; geoloqlar: Səttar Süleymanov, Əziz Əsgərov, Əzəl Sultanov, Sübhi Bəktaşi, Qədir Sultanov, Faiq Bağırzadə, Xudu Məmmədov, Vasif Əliyev; coğrafiyaçılar Əbdülrəhim Hacızadə, Ələşrəf Məmmədov, Müseyib Müseyibov, Əsgər Əyyubov, Şahvələd Xəlilov, Ənvər Şıxlinski, Tofiq Şahsuvarov, Muxtar Abdiyev, Rizvan Piriyev; filoloqlar: Muxtar Hüseynzadə, Əli Sultanlı, Mikayıl Rəfili, Abbas Zamanov, Hadı Mirzəzadə, Məmmədhüseyn Təhmasib, Kamal Talıbzadə, Əlövsət Abdullayev, Fərhad Zeynalov, Firudin Hüseynov, Yusif Seyidov, Cəlal Abdullayev, Azad Nəbiyev, Seyfulla Əsədullayev; tarixçilər: Ədhəm Şahmalıyev, Mehdi İrəvanski, Ruhulla Orucov, Səfiyar Musayev, Tofiq Vəliyev, Məhəd Sofiyev, Eldar İsmayılov, Aslan Atakişiyev, Məlik Orucov; hüquqşünaslar: Qasım Cəfərov, İsa Məmmədov, Murtuz Ələsgərov, Kamilə Sarıcalinskaya, Yusif Mehdiyev, Tofiq Qafarov, Məlik Orucov, Cəfər Mövsümov; şərqşünaslar: Cahangir Qəhrəmanov, Həsən Mahmudov, Zakir Məmmədov, Böyükağa Hüseynov, Aniyə Ələkbərova, Malik Mahmudov; jurnalistlər: Həsən Şahgəldiyev, Rza Quliyev, Nurəddin Babayev, Famil Mehdi, İsrafil Nəzərov, Rəşid Mahmudov, Tofiq Rüstəmov; filosoflar: Aslan Aslanov, Fuad Qasımzadə, Həsən Şirəliyev, Həmid İmanov, Cəmil Əhmədli, Məmmədəli Zeynalov; iqtisadçı Teymur Vəliyev və onlarca başqalarının əziz xatirəsi bu əziz yubiley günlərində bir daha böyük ehtiramla xatırlanır.

Bu gün respublika alimlərinin xeyli hissəsinin çalışdığı Bakı Dövlət Universitetində 300-dək elmlər doktoru, professor, o cümlədən 10 akademik, 11 AMEA-nın müxbir üzvü, 900-ə yaxın fəlsəfə doktoru, dosent 20 mindən çox tələbənin təlim-tərbiyəsi ilə məşğul olur. Bunlardan, təqribən, 100 nəfəri dövlətin müxtəlif ali mükafatlarına layiq görülmüşdür, 30 nəfərə yaxını əməkdar elm xadimi, 4 nəfəri Dövlət mükafatı laureatı, 10 nəfərdən çoxu Prezident təqaüdçüsü, 12 nəfəri Milli Məclisin deputatıdır.











Bu kitab Azərbaycan dövlətçiliyinin etibarlı sosial dayağı olan Bakı Dövlət Universitetinin 95 il ərzində keçdiyi çətin, lakin şərəfli inkişaf yolundan oxucuların ətraflı xəbərdar olmaları üçün yazılır. Bu gün işıqlı və geniş auditoriyalarda müasir informasiya-kommunikasiya texnologiyalarından sərbəst istifadə edən, dünya şöhrətli alimlərin yüksək səviyyəli mühazirələrini dinləyən, yeni avadanlıqlarla təchiz olunmuş laboratoriyalarda elmin və texnikanın nailiyyətlərinə yiyələnən tələbələr bu münbit elmi şəraitin birdən-birə yarandığını, onlara dərs deyən müəllimlərin universitetə haradansa qonaq gəldiklərini düşünməsinlər, bu yolda yaradılan maneələrdən, mövcud problemlərdən, göstərilən qayğılardan xəbərdar olsunlar. Bilsinlər ki, tarixin yaratdığı bütün möhtəşəm abidələr kimi, Bakı Dövlət Universiteti də vətənin dahi və istedadlı övladlarının sonsuz məhəbbəti və zəhmətsevərliyi ilə addım-addım inkişaf etmiş, tarix baxımından qısa, lakin mahiyyətinə görə uzun 95 il ərzində bugünkü səviyyəyə gəlib çatmışdır. Hesab edirəm ki, bu həqiqətlər yalnız tələbələr üçün deyil, xalqımızın bütün təbəqələrindən olan oxucuları üçün maraqlı olacaqdır.

**Akademik Abel MƏHƏRRƏMOV,**
**BDU-nun rektoru.**